QANUN № 08 (382), 2026, s.103-109

Əkbərova Fidan Anar qızı,
Bakı Dövlət Universitetinin Mülki hüquq kafedrasının doktorantı
E-mail: fidanakbarova380@gmail.com
Ünvan: Bakı, Akademik, 33 Zahid Xəlilov küçəsi

UOT 347.51
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.1110

MÜLKİ HÜQUQDA ƏTRAFDAKILAR ÜÇÜN YÜKSƏK TƏHLÜKƏ YARADAN FƏALİYYƏTƏ GÖRƏ MƏSULİYYƏT: "RAYLANDS FLETÇERƏ QARŞI" PRESEDENTİNİN MÜASİR HÜQUQA TƏSİRİ

Açar sözlər: *təqsirsiz məsuliyyət, delikt hüququ, presedent, mülki məsuliyyət, yüksək təhlükə mənbəyi, zərərin əvəzinin ödənilməsi, xüsusilə təhlükəli fəaliyyətlər, qeyri-adi dərəcədə təhlükəli fəaliyyət.*

Ключевые слова: *Ответственность независимо от вины, деликтное право, судебный прецедент, гражданско-правовая ответственность, источник повышенной опасности, возмещение вреда, особо опасная деятельность, деятельность, создающая повышенную опасность.*

Keywords: *Strict liability, tort law, precedent, civil liability, source of increased danger, compensation for damage, ultrahazardous activities, abnormally dangerous activities.*

Müasir cəmiyyətin elmi-texniki inkişafı, sənayeləşmənin sürətlənməsi, nəqliyyat vasitələrinin sayının artması, atom enerjisindən, yüksək gərginlikli elektrik enerjisindən, kimyəvi və partlayıcı maddələrdən geniş istifadə edilməsi insanların həyat və sağlamlığı, əmlakı, habelə ətraf mühit üçün potensial təhlükə yaradan fəaliyyət növlərinin əhatə dairəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Belə fəaliyyətlərin həyata keçirilməsi iqtisadi və sosial inkişafın ayrılmaz tərkib hissəsi olsa da, onların yaratdığı yüksək risk hüquqi məsuliyyət institutunun da yeni yanaşmalar əsasında formalaşmasını zəruri etmişdir. Məhz bu səbəbdən müasir mülki hüquqda təqsir prinsipinə əsaslanan klassik məsuliyyət modeli ilə yanaşı, təqsirsiz məsuliyyət institutu da mühüm əhəmiyyət kəsb edir.

ABŞ-də delikt hüququnun əsas prinsiplərinin sistemləşdirilməsi məqsədilə Amerika Hüquq İnstitutu (American Law Institute) tərəfindən hazırlanmış **"Restatement of Torts"** topluları məhkəmə presedentlərində formalaşmış hüquqi qaydaların ümumiləşdirilmiş ifadəsini özündə əks etdirən nüfuzlu hüquqi mənbələr hesab olunur. Hüquqi cəhətdən məcburi qüvvəyə malik olmasalar da, bu toplular ABŞ məhkəmələri tərəfindən delikt hüququnun tətbiqi və inkişafı zamanı geniş istifadə edilir. Delikt hüququna dair **"Restatement of Torts"** toplularının hər üç nəşrində **"**xüsusilə təhlükəli fəaliyyətlər**"** (**ultrahazardous activities**) və ya **"**qeyri-adi dərəcədə təhlükəli fəaliyyətlər**"** **(abnormal-**

ly dangerous activities) anlayışları altında təqsirsiz məsuliyyətin ayrıca hüquqi institutu tanınmışdır [2]. Bu institutun tətbiq sahəsi kifayət qədər məhduddur və əsasən partlayış, nəzarətdən çıxmış vəhşi heyvanlar, su anbarlarının dağılması, eləcə də oxşar xarakterli digər təhlükəli fəaliyyətlər nəticəsində vurulan zərərin əvəzinin ödənilməsi halları ilə məhdudlaşır. Hüquqşünas-alimlər və məhkəmələr tərəfindən bu institutun tətbiq dairəsinin genişləndirilməsi ilə bağlı müxtəlif fikirlər irəli sürülsə də, bu yanaşma hüquqi praktikada qəbul edilməmiş və təqsirsiz məsuliyyət yalnız məhdud sayda xüsusilə təhlükəli fəaliyyətlər nəticəsində üçüncü şəxslərə və onların əmlakına vurulmuş zərərə münasibətdə tətbiq edilmişdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1108-ci maddəsi ətrafdakılar üçün yüksək təhlükə yaradan fəaliyyət nəticəsində vurulmuş zərərə görə mülki-hüquqi məsuliyyətin əsaslarını müəyyən edən fundamental hüquq normalarından biridir. Həmin maddəyə əsasən, nəqliyyat vasitələrindən, mexanizmlərdən, yüksək gərginlikli elektrik enerjisindən, atom enerjisindən, partlayıcı maddələrdən, güclü təsir edən zəhərlərdən və i.a. istifadə edilməsi; tikinti fəaliyyətinin və onunla bağlı digər fəaliyyətin həyata keçirilməsi nəticəsində zərər vurulduqda, yüksək təhlükə mənbəyinə mülkiyyət və ya digər qanuni əsaslarla sahiblik edən şəxs, bir qayda olaraq, təqsirindən asılı olmayaraq vurulmuş zərərin əvəzini ödəməyə borcludur. Qanun yalnız məhdud hallarda – zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin qəsdi nəticəsində baş verdiyi sübuta yetirildikdə məsuliyyətdən azadolma imkanı nəzərdə tutur. Bununla yanaşı, maddədə yüksək təhlükə mənbəyinin qanunsuz olaraq başqasının sahibliyinə keçməsi və bir neçə yüksək təhlükə mənbəyinin qarşılıqlı təsiri nəticəsində yaranan zərərə görə məsuliyyətin bölüşdürülməsi məsələləri də ətraflı tənzimlənmişdir [1].

Mülki Məcəllənin 1108-ci maddəsinin məzmunundan göründüyü kimi, qanunverici yüksək təhlükə yaradan fəaliyyət nəticəsində zərərçəkənin hüquqlarının daha səmərəli müdafiəsini təmin etmək məqsədilə məsuliyyətin əsasını təqsirdən deyil, təhlükəli fəaliyyətin yaratdığı riskdən çıxış etməklə müəyyən etmişdir. Bu yanaşma müasir delikt hüququnda geniş yayılmış risk nəzəriyyəsinin və təqsirsiz məsuliyyət institutunun əsas ideyaları ilə uzlaşır. Belə yanaşmanın məqsədi yüksək risk yaradan fəaliyyətin mənfi nəticələrinin zərərçəkənin üzərinə deyil, həmin fəaliyyətdən fayda əldə edən və onun üzərində nəzarət imkanına malik olan şəxsin üzərinə qoyulmasını təmin etməkdir.

Qeyd edilməlidir ki, 1868-ci ildə İngiltərənin həmin dövrdə ən yüksək məhkəmə instansiyası olan Lordlar Palatası (House of Lords) tərəfindən qəbul edilmiş *Raylands Fletçerə qarşı* işi üzrə qərar yüksək təhlükə yaradan fəaliyyətə görə təqsirsiz məsuliyyət institutunun müasir hüquqda formalaşmasına və sonrakı inkişafına əhəmiyyətli təsir göstərən əsas hüquqi mənbələrdən biri hesab olunur. Həmin presedent sonrakı dövrlərdə İngiltərə, ABŞ və digər ümumi hüquq ölkələrində təhlükəli fəaliyyətə görə məsuliyyət institutunun inkişafına mühüm təsir göstərmiş, daha sonra isə kontinental Avropa hüququnda riskə əsaslanan məsuliyyət konsepsiyasının formalaşmasına nəzərəçarpacaq töhfə vermişdir. Məhz bu qərardan sonra təhlükəli fəaliyyət nəticəsində vurulan zərərə görə məsuliyyətin təqsir prinsipindən tam asılı olmaması barədə hüquqi yanaşma inkişaf etmiş, sonradan müxtəlif dövlətlərin qanunvericiliyində, o cümlədən Azərbaycan Respublikasının Mülki Məcəlləsində öz əksini tapmışdır. Bu baxımdan Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1108-ci maddəsinin nəzəri əsaslarının araşdırılması yalnız milli qanunvericiliyin təhlili ilə məhdudlaşmamalı, həm də həmin hüquqi institutun formalaşmasına təsir göstərmiş tarixi

və müqayisəli hüquqi mənbələr kontekstində qiymətləndirilməlidir. Xüsusilə *Raylands Fletçerə qarşı* presedentinin hüquqi mahiyyəti, onun əsasında formalaşmış təqsirsiz məsuliyyət konsepsiyasının öyrənilməsi Mülki Məcəllənin 1108-ci maddəsinin düzgün tətbiqi və elmi şərhi baxımından mühüm əhəmiyyət kəsb edir.

Həmin keysdə Raylands öz dəyirmanını su ilə işlətmək məqsədilə torpaq sahəsində su anbarı tikdirir. Su anbarının tikildiyi ərazinin altında əvvəllər istismar olunmuş, lakin sonradan istifadədən çıxmış mədən şaxtalarının mövcudluğu nə Raylandsa, nə də tikintini həyata keçirən mühəndis və podratçıya məlum olur. Su anbarı tikilib su ilə doldurulduqdan sonra su həmin şaxtalara sızır və yeraltı keçidlər vasitəsilə qonşu torpaq sahəsində yerləşən Fletçerin işlək kömür mədəninə axaraq mədəni su altında qoyur. Nəticədə Fletçerin mədəninə ciddi maddi zərər dəyir [3].

İş üzrə müəyyən edilir ki, Rylands su anbarının tikintisində hər hansı ehtiyatsızlığa yol verməmiş, tikinti işləri ixtisaslı mühəndis və podratçının nəzarəti altında aparılmışdır. Buna baxmayaraq, məhkəmə qarşısında belə bir hüquqi məsələ qoyulur: öz torpaq sahəsində topladığı suyun nəzarətdən çıxaraq qonşunun əmlakına zərər vurmasına görə Raylands təqsiri sübuta yetirilmədiyi halda belə məsuliyyət daşıyırmı? Lordlar Palatası bu suala müsbət cavab verərək Rylandsın vurulmuş zərərə görə məsuliyyət daşıdığı nəticəsinə gəlmişdir. Sözügedən iş üzrə Lord Keyrnsın hüquqi rəyi haqlı olaraq qeyri-adi dərəcədə təhlükəli fəaliyyətlərə (abnormally dangerous activities) görə tətbiq edilən təqsirsiz məsuliyyət institutunun hüquqi əsaslarını ən dolğun şəkildə ifadə edən klassik hüquqi mövqelərdən biri hesab olunur: "Mənim fikrimcə, bu işə tətbiq edilməli olan hüquqi prinsiplər olduqca sadədir. Cavabdehlər su anbarının inşa edildiyi torpaq sahəsinin mülkiyyətçisi və ya qanuni istifadəçisi kimi həmin torpaq sahəsindən adi və ya təbii istifadə çərçivəsində qanunla icazə verilən istənilən məqsədlə istifadə edə bilərdilər. Əgər torpaqdan bu cür təbii istifadə nəticəsində yerüstü və ya yeraltı suların toplanması baş vermiş və təbiət qanunlarının təsiri ilə həmin sular iddiaçının torpaq sahəsinə keçmiş olsaydı, iddiaçının buna etiraz etmək hüququ olmazdı. Belə bir keçidin qarşısını almaq istəyirdisə, bunun üçün zəruri tədbirləri görmək, o cümlədən öz torpaq sahəsi ilə cavabdehlərin torpaq sahəsi arasında müvafiq maneə yaratmaq məhz iddiaçının üzərinə düşərdi. Digər tərəfdən, əgər cavabdehlər torpaq sahəsindən adi və ya təbii istifadə hədləri ilə kifayətlənməyərək ondan qeyri-adi istifadəni (non-natural use of land) həyata keçirmək istəmiş, yəni həmin torpaq sahəsinə təbii şəraitdə orada mövcud olmayan hər hansı elementi gətirmiş, yaxud torpaq üzərində və ya altında görülən adi işlərin nəticəsi olmayan həcmdə və qaydada su toplamış olsaydılar və bunun nəticəsində, yaxud bu fəaliyyətin həyata keçirilməsində yol verilmiş hər hansı qüsur səbəbindən həmin su iddiaçının torpaq sahəsinə axaraq ona zərər vurmuş olsaydı, cavabdehlər bu fəaliyyəti öz riskləri ilə həyata keçirmiş hesab olunmalıdırlar. Belə olan halda, suyun nəzarətdən çıxaraq iddiaçının torpaq sahəsinə keçməsi və ona zərər vurması kimi nəticələrə görə cavabdehlər hüquqi məsuliyyət daşımalıdırlar [3]".

Lord Keyrns əlavə olaraq bildirmişdir ki, o, işə aşağı apellyasiya instansiyasında baxmış hakim Blekbörnün hüquqi mövqeyi ilə **tam razıdır.** Hakim Blekbörn öz rəyində qeyd etmişdir ki, hər hansı şəxs öz məqsədləri üçün nəzarətdən çıxaraq qonşularına zərər vurmağa meyilli olduğu hamıya məlum olan bir şeyi öz torpaq sahəsində saxlayırsa, bunu **öz riski ilə** etmiş hesab olunur. O, belə nəticəyə gəlmişdir ki, şəxs öz torpaq sahəsində saxladığı obyektin nəzarətdən çıxaraq başqasına zərər vurmasının qarşısını ala bilmədiyi halda, vurulmuş zərəri tam həcmdə ödəməyə borcludur.

Lord Keyrns iş üzrə hüquqi rəyində cavabdehin məsuliyyətini ayrıca əsaslandırmağa çalışmaqdan daha çox, mübahisənin predmetini mahiyyət etibarilə məsuliyyət doğuran hüquqi münasibətlər kateqoriyasına aid etmişdir. O, birincisi, vurğulamışdır ki, torpaqdan bəzi qeyri-adi istifadə formaları torpaq sahəsinə, zəruri ehtiyat tədbirləri görülsə belə, nəzarətdən çıxaraq qonşu torpaq sahəsinə keçməsi ehtimalı ilə xarakterizə olunan obyekt və ya maddələrin gətirilməsini nəzərdə tutur. İkincisi, belə bir obyekti və ya maddəni öz torpaq sahəsinə gətirən şəxs həmin risk reallaşdığı və nəticədə başqasına zərər dəydiyi halda, bunun hüquqi nəticələrinə görə məsuliyyət daşıyır. Üçüncüsü, Lord Keyrns təhlükəli obyektin və ya maddənin nəzarətdən çıxaraq qonşu torpaq sahəsinə keçməsi və bunun nəticəsində zərər vurmasını **"zərərli nəticə" (evil)** kimi xarakterizə etmiş, lakin həmin obyektin və ya maddənin torpaq sahəsinə gətirilməsi barədə qərarın özlüyündə hüquqazidd və ya yolverilməz hərəkət olduğunu ifadə etməmişdir. *Raylands Fletçerə qarşı presedentinin qəbulundan əvvəl də İngiltərə hüququnda yüksək təhlükə yaradan fəaliyyətlərə görə məsuliyyətin hüquqi əsasları artıq formalaşmışdı. Bu əsaslar iki mənbəyə - məhkəmə presedentləri və qanunvericilik təcrübəsinə söykənirdi.* Birinci hala missal olaraq Lord Keyrnsin hakim Blekbörnün əvvəlki məhkəmə qərarlarına istinad etməsi ilə razılaşmasını qeyd etmək olar. Həmin qərarlarda, məsələn, nəzarətdən çıxaraq qonşunun əkin sahəsinə keçib məhsuluna zərər vurmuş iribuynuzlu heyvanların sahibi, habelə həyətdə yerləşən sanitar qovşağın nasazlığı nəticəsində çirkabın qonşunun zirzəmisinə axmasına görə mülki məsuliyyət daşıyan şəxslər barədə məsuliyyət müəyyən edilmişdi.İkincisi, tanınmış ingilis hüquq tarixçisi **Brayan Simpson** qeyd etdiyi kimi, *Raylands Fletçerə qarşı* presedentinin formalaşması təkcə məhkəmə təcrübəsinin deyil, həm də dövrün siyasi və qanunvericilik şəraitinin təsiri altında baş vermişdir [5]. XIX əsrin ortalarında İngiltərədə bəndlərin dağılması ilə nəticələnən, yüzlərlə insanın həlak olmasına və bütöv kəndlərin məhv olmasına səbəb olan ən azı iki böyük fəlakət baş vermişdi. Bunlardan birincisi 1852-ci ildə baş vermiş **Holmfirs** fəlakəti, ikincisi isə *Raylands Fletçerə qarşı* işi üzrə məhkəmə icraatı davam etdiyi dövrdə, 1864-cü ildə İngiltərənin Şeffild şəhəri yaxınlığında yerləşən Deyl Dayk su anbarını saxlayan bəndin dağılması olmuşdur.

1852-ci ildə baş vermiş Holmfirs fəlakətindən sonra müəyyən bənd tikintilərinə icazə verən xüsusi qanun layihələrinə (private bills) zərərin ödənilməsini nəzərdə tutan və sonradan **"Holmfirs şərtləri"** kimi tanınan müddəalar daxil edilməyə başlanılmışdır. Belə müddəalardan biri 1853-cü ildə **Deyl Dayk** bəndinin tikintisinə icazə verən qanun layihəsində də öz əksini tapmışdı. Buna görə də həmin bəndi inşa etmiş su təchizatı şirkəti həmin bəndin tikintisinə icazə verən qanunun müddəalarına əsasən 1864-cü ildə baş vermiş fəlakətli bənd dağılması nəticəsində vurulmuş zərərə görə təqsirindən asılı olmayaraq məsuliyyət daşıyırdı.Deyl Dayk bəndinin dağılmasından sonra Parlament ictimai su anbarları üçün bəndlər inşa edən şirkətlərin bəndlərin dağılması nəticəsində zərər çəkmiş şəxslərə kompensasiya ödəməsini nəzərdə tutan ümumi qanun layihəsini müzakirəyə çıxarsa da, həmin qanun layihəsi komitə mərhələsində qəbul edilməmişdir. Bununla yanaşı, xüsusi qanunlarda "Holmfirs şərtləri" vasitəsilə təqsirsiz məsuliyyət prinsipinin tətbiq edilməsi, ehtimal ki, *Raylands Fletçerə qarşı* işi üzrə qəbul edilmiş hüquqi yanaşmanın formalaşmasına da müəyyən təsir göstərmişdir. Hakim Blekbörn bu müddəaların mövcudluğundan xəbərdar idi və şifahi məhkəmə baxışı zamanı iddiaçının nümayəndəsindən «Holmfirs şərtləri»nin işə tətbiqinin mümkünlüyü barədə mövqeyini bildirməsini xahiş etmişdi. Bundan əlavə, Bra-

yan Simpsonun araşdırmalarından məlum olur ki, 1864-cü ildə Lord Keyrns Deyl Dayk fəlakəti nəticəsində zərər çəkmiş əmlak sahiblərinin hüquqi nümayəndəsi olmuş və onlara 1853-cü il qanununda nəzərdə tutulmuş "Holmfirs şərti" əsasında təqsirin sübuta yetirilməsinə ehtiyac olmadan zərərin əvəzini tələb etmək hüququna malik olduqları barədə hüquqi rəy vermişdi.Düzdür, nə hakim Blekbörnün, nə də Lord Keyrnsın hüquqi rəylərində bəndlərin dağılması hadisələrinə və ya "Holmfirs şərtləri"nə birbaşa istinad edilmişdir. Brayan Simpsonun fikrincə, hakimlər *Raylands Fletçerə qarşı* işindən təkcə mövcud hüquq normalarını tətbiq etmək üçün deyil, həm də Parlament tərəfindən bənd tikintisini həyata keçirən şəxslər üçün ümumi kompensasiya öhdəliyini nəzərdə tutan qanunvericilik aktının qəbul edilməməsi nəticəsində yaranmış hüquqi boşluğu məhkəmə təcrübəsi vasitəsilə doldurmaq üçün istifadə etmiş ola bilərlər [5]. Lakin bu yanaşma daha çox ehtimal xarakteri daşıyır. Bununla belə, bəndlərin dağılması ilə nəticələnən geniş ictimai rezonans doğurmuş hadisələrin hakimlərdə böyük həcmdə suyun süni su anbarlarında saxlanılması ilə bağlı risklərin açıq və real təhlükə yaratdığı qənaətini gücləndirdiyi inandırıcı görünür. Daha da əhəmiyyətlisi, ehtimal etmək olar ki, hakim Blekbörn və Lord Keyrns istinad etdikləri əvvəlki məhkəmə presedentləri ilə sonradan formalaşmış «Holmfirs şərtləri» arasında hüquqi ardıcıllığın mövcud olduğunu qəbul etmişlər. Başqa sözlə, onlar həm əvvəlki məhkəmə təcrübəsinə, həm də həmin dövrün qanunvericilik təcrübəsinə əsaslanaraq belə nəticəyə gəlmişlər ki, süni su anbarlarında böyük həcmdə suyun saxlanılması kimi ictimai baxımdan faydalı fəaliyyət qonşu əmlaka ciddi zərər vurmaq riski yaratdığı üçün, belə risk reallaşdığı halda, təqsirin mövcudluğundan asılı olmayaraq hüquqi məsuliyyətə səbəb olmalıdır. Amerikalı hüquq tarixçisi Ced Şuqermanın araşdırmaları göstərir ki, *Raylands Fletçerə qarşı* presedenti ABŞ məhkəmələrində ilkin dövrdə müəyyən ehtiyatla qarşılansa da, sonradan ABŞ-də baş vermiş iri bənd qəzaları, o cümlədən 1889-cu ildə baş vermiş və böyük dağıntılara səbəb olmuş Constaun daşqını nəticəsində bu presedentə münasibət dəyişmişdir. Təxminən əlli il sonra "Restatement (First) of Torts" *Raylands Fletçerə qarşı* presedentində formalaşmış hüquqi yanaşmanı ümumiləşdirərək " xüsusilə təhlükəli fəaliyyətlər" (ultrahazardous activities) anlayışını və bu fəaliyyətlərə görə təqsirsiz məsuliyyət prinsipini qəbul etmişdir. Mahiyyət etibarilə həmin hüquqi yanaşma sonrakı dövrdə də öz əhəmiyyətini qoruyub saxlamışdır. Maraqlıdır ki, *Raylands Fletçerə qarşı* presedenti ABŞ hüququna İngiltərə hüququndan daha böyük təsir göstərmişdir. Belə ki, Belə ki, ABŞ-dəki "qeyri-adi dərəcədə təhlükəli fəaliyyətlər" (abnormally dangerous activities) kateqoriyasına ekvivalent hüquqi kateqoriya İngiltərə hüququnda formalaşmamışdı. Əksinə, 2003-cü ildə Lordlar Palatası bildirmişdir ki, *Raylands Fletçerə qarşı* presedenti yeni hüquqi məsuliyyət institutu yaratmamış, yalnız qonşu əmlaka zərər vurulması ilə bağlı mövcud hüquq normalarının konkret hadisəyə tətbiqindən ibarət olmuşdur [6].Yuxarıda qeyd edildiyi kimi, "Restatement (Second) of Torts" "xüsusilə təhlükəli fəaliyyətlər" (ultrahazardous activities) terminini "qeyri-adi dərəcədə təhlükəli fəaliyyətlər" (abnormally dangerous activities) ifadəsi ilə əvəz etsə də, bu fəaliyyətlərin müəyyən edilməsində əsas etibarilə *Raylands Fletçerə qarşı* presedentində formalaşdırılmış meyarlara istinad etmişdir. Bu məqsədlə həmin "Restatement"in 520-ci bölməsində fəaliyyətin "qeyri-adi dərəcədə təhlükəli" hesab olunması üçün nəzərə alınmalı olan altı meyar müəyyən edilmişdir: 1) fəaliyyətin digər şəxslərə, onların torpaq sahəsinə və ya əmlakına zərər vurmaq baxımından yüksək risk yaratması; 2) belə risk reallaşdığı təqdirdə baş verəcək zərərin ağır xarakter daşımasının ehtimal olunması; 3) ağlaba-

tan ehtiyat tədbirlərinin görülməsi ilə belə həmin riskin tam aradan qaldırılmasının mümkün olmaması; 4) fəaliyyətin cəmiyyətdə geniş yayılmış və adi istifadə olunan fəaliyyət növlərinə aid olmaması; 5) fəaliyyətin həyata keçirildiyi yer üçün uyğun xarakter daşımaması; 6) fəaliyyətin cəmiyyət üçün faydasının onun yaratdığı təhlükə ilə müqayisədə daha az əhəmiyyət kəsb etməsi [2]. "Restatement (Third) of Torts" bu yanaşmanı daha yığcam şəkildə ifadə edərək göstərir ki, fəaliyyət aşağıdakı iki şərt mövcud olduqda qeyri-adi dərəcədə təhlükəli fəaliyyət hesab edilir: 1) fəaliyyətin həyata keçirilməsi zamanı həmin fəaliyyətin bütün iştirakçıları tərəfindən ağlabatan ehtiyat tədbirləri görülsə belə, onun zərər vurmaq baxımından əvvəlcədən proqnozlaşdırıla bilən və olduqca yüksək risk yaratması; 2) həmin fəaliyyətin cəmiyyətdə geniş yayılmış adi fəaliyyət növlərindən biri olmaması [2].Müasir dövrdə *Raylands Fletçerə qarşı* formalaşmış təqsirsiz məsuliyyət prinsipinin ən çox tətbiq edildiyi fəaliyyət növü partlayıcı maddələrdən istifadə hesab olunur. Bu isə təsadüfi deyildir. Belə ki, partlayış işləri özlüyündə hüquqazidd fəaliyyət sayılmasa da, torpaqdan qeyri-adi istifadə (non-natural use of land) formalarından biri olmaqla, qonşu şəxslər üçün açıq və ciddi təhlükə yaradır. Tarixi təcrübə də göstərir ki, hətta bütün zəruri ehtiyat tədbirləri görüldükdə belə, bu fəaliyyətin yaratdığı risk tamamilə aradan qaldırıla bilmir. Buna görə də fəaliyyətin özü hüquqazidd hesab edilməsə də, onun nəticəsində baş verən zərər hüquqi məsuliyyət doğuran zərərli nəticə kimi qiymətləndirilir.

Müasir dövrdə *Raylands Fletçerə qarşı* presedentində formalaşmış təqsirsiz məsuliyyət psinsipinin ən çox tətbiq edildiyi fəaliyyət növü, ehtimal ki, partlayıcı maddələrdən istifadə hesab olunur [4]. Bu isə təsadüfi deyildir. Belə ki, partlayıcı maddələrdən istifadə özlüyündə qanunla qadağan olunmuş fəaliyyət olmasa da, "qeyri-adi" (non-natural) fəaliyyət hesab edilir və ətrafdakı şəxslər və onların əmlakı üçün açıq-aşkar və ciddi təhlükə yaradır. Tarixən belə fəaliyyət nəticəsində yaranan risklər, hətta lazımi ehtiyat tədbirləri görüldükdə belə, tam aradan qaldırıla bilməmişdir. Fəaliyyətin özü hüquqazidd olmasa da, onun nəticəsində yaranan zərər hüquqi baxımdan arzuolunmaz nəticə hesab olunur.

Aparılmış təhlillər göstərir ki, Raylands Fletçerə qarşı presedenti təqsirsiz məsuliyyət institutunun formalaşmasına və sonrakı inkişafına mühüm təsir göstərmiş, yüksək risk yaradan fəaliyyət nəticəsində vurulan zərərə görə məsuliyyətin hüquqi əsaslarını müəyyən edən mühüm hüquqi mənbələrdən birinə çevrilmişdir. Sonrakı dövrdə bu yanaşma, xüsusilə ABŞ hüququnda "Restatement of Torts" vasitəsilə inkişaf etdirilərək müasir delikt hüququnun əsas institutlarından biri kimi formalaşmışdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1108-ci maddəsində nəzərdə tutulmuş ətrafdakılar üçün yüksək təhlükə yaradan fəaliyyətə görə məsuliyyət institutu da mahiyyət etibarilə risk nəzəriyyəsinə əsaslanır və təhlükəli fəaliyyətin mənfi nəticələrinin zərərçəkənin deyil, həmin fəaliyyəti həyata keçirən və ondan fayda əldə edən şəxsin üzərinə qoyulmasını nəzərdə tutur. Bu baxımdan *Raylands Fletçerə qarşı* presedenti yalnız hüquq tarixinin mühüm mərhələlərindən biri deyil, həm də yüksək təhlükə mənbəyinin vurduğuş zərərə görə müasir mülki-hüquqi məsuliyyət institutunun nəzəri əsaslarının dərk edilməsi və Azərbaycan qanunvericiliyinin elmi şərhi baxımından öz aktuallığını qoruyan mühüm hüquqi mənbə hesab olunur.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi https://e-qanun.az/framework/46944
2. Restatement (Third) of Torts: Liability for Physical & Emotional Harm §§ 20–23 (Am. Law Inst. 2010); Restatement (Second) of Torts §§ 519–520 (Am.Law Inst. 1977); Restatement (First) of Torts § 520 (Am. Law Inst. 1938).
3. Rylands v Fletcher [1868] UKHL 1 (17 July 1868)
chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://www.uni-trier.de/fileadmin/fb5/FFA/KURSUNTERLAGEN/Anglo-Amerikanisches_Recht/Law_of_Torts/Siry-SS-2012/Rylands_v_Fletcher__1868__UKHL_1__17_July_1868_.pdf
4. DAN B. DOBBS, PAUL T. HAYDEN & ELLEN M. BUBLICK, THE LAW OF TORTS § 443 (2d ed. 2011)
5. A.W. Brian Simpson, Legal Liability for Bursting Reservoirs: The Historical Context of Rylands v. Fletcher, 13 J. LEGAL STUD. 209 (1984).
6. Transco plc v. Stockport Metro. Borough Council [2003] UKHL 61, [2004] 2 AC 1.

Акбарова Фидан Анар гызы,
докторант кафедры гражданского права
Бакинского государственного университета

ГРАЖДАНСКО-ПРАВОВАЯ ОТВЕТСТВЕННОСТЬ ЗА ДЕЯТЕЛЬНОСТЬ, СОЗДАЮЩУЮ ПОВЫШЕННУЮ ОПАСНОСТЬ ДЛЯ ОКРУЖАЮЩИХ: ВЛИЯНИЕ ПРЕЦЕДЕНТА «RYLANDS V. FLETCHER» НА СОВРЕМЕННОЕ ПРАВО

РЕЗЮМЕ

В статье исследуется правовая природа гражданско-правовой ответственности за деятельность, создающую повышенную опасность для окружающих. Особое внимание уделяется историческому развитию института ответственности независимо от вины на основе прецедента *Rylands v. Fletcher* и его влиянию на современное право. Анализируются правовые принципы, сформулированные в данном прецеденте, концепции *ultrahazardous activities* и *abnormally dangerous activities*, а также правовое регулирование ответственности за деятельность, создающую повышенную опасность для окружающих, предусмотренное статьей 1108 Гражданского кодекса Азербайджанской Республики. Кроме того, подчёркивается значение сравнительно-правового анализа для развития данного института.

Akbarova Fidan Anar,
Doctoral candidate, Department of Civil Law,
Baku State University

LIABILITY FOR ACTIVITIES CREATING INCREASED DANGER TO OTHERS IN CIVIL LAW: THE INFLUENCE OF THE RYLANDS V. FLETCHER PRECEDENT ON MODERN LAW

SUMMARY

The article examines the legal nature of liability for activities creating increased danger to others in civil law. Particular attention is paid to the historical development of strict liability through the *Rylands v. Fletcher* precedent and its influence on modern law. The article analyzes the legal principles established by this precedent, the concepts of *ultrahazardous activities* and *abnormally dangerous activities*, and the legal regulation of liability for activities creating increased danger to others under Article 1108 of the Civil Code of the Republic of Azerbaijan. The importance of comparative legal analysis in the development of this institution is also highlighted.

Redaksiyaya daxilolma tarixi: 31.07. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 11.08. 2026
Çapa qəbul olunma tarixi: 23.08.2026